# Zəfərin ilk qığılcımları



**Azərbaycan-Ermənistan münasibətlərində gərginliyin pik həddə çatdığı bir dövrdə baş vermiş Tovuz döyüşləri Vətən müharibəsinə gedən yolun strateji mərhələsi kimi tarixə düşdü. 2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi pozaraq mövqelərimizi artilleriya atəşinə tutdu və hücuma keçməyə cəhd göstərdi. Məqsəd sərhəddə mövqe üstünlüyü qazanmaq və daxildə siyasi manevr imkanları əldə etmək idi. Ermənistanın bu addımı, beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmaqla yanaşı, geosiyasi baxımdan da təhlükəli presedent yaradırdı. Təxribatların dövlət sərhədi boyunca, yəni münaqişə zonası hesab olunmayan Tovuz rayonu ərazisində baş verməsi Ermənistanın daha genişmiqyaslı hərbi-siyasi məqsədlər güddüyünü təsdiqləyirdi. İyulun 12-dən 17-dək davam edən intensiv döyüşlər zamanı Azərbaycan Ordusu çevik və adekvat hərbi əməliyyatlar düşmənin hücum cəhdlərini dəf etməklə ona ciddi canlı qüvvə və texnika itkisi yaşatdı. Ordumuzun peşəkar və məqsədyönlü müdafiəsi nəticəsində düşmən geri çəkilməyə məcbur oldu, Azərbaycan tərəfi isə heç bir mövqe və ərazi itkisinə yol vermədi. Döyüşlər zamanı Azərbaycan Ordusunun üç hərbi qulluqçusu şəhid oldu, beş nəfər yaralandı. Lakin cavab tədbirləri ilə Ermənistan ordusunun şəxsi heyəti və texnikası üzərində böyük üstünlük əldə edildi.**

İyulun 13-nə keçən gecə Ermənistanın artan təxribat cəhdləri artıq lokal qarşıdurma səviyyəsini keçmişdi. Düşmən tərəfi iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, qumbaraatanlardan və minaatanlardan istifadə etməklə Azərbaycan Ordusunun mövqelərini və mülki infrastruktur obyektlərini, o cümlədən Tovuz rayonunun Ağdam kəndini hədəfə aldı. Azərbaycan Silahlı Qüvvələrinin təxribatlara cavabı sərt və həlledici oldu. Artilleriya, minaatan və tankların tətbiqi ilə həyata keçirilən gecə əməliyyatları zamanı Ermənistanın dayaq məntəqələri, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi dəqiq atəşlə məhv edildi. Bu cavab zərbələri ilə Azərbaycan tərəfi düşmənin hərbi potensialını zəiflədərək gələcək hücumların qarşısını aldı.

İyulun 13-də Ermənistanın sərhədyanı bölgədə hərbi eskalasiyanı daha da dərinləşdirməsi Azərbaycan qətiyyətli reaksiyasına səbəb oldu. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclası milli təhlükəsizliyin təmin olunması baxımından mühüm hadisə idi. İclasda vəziyyət hərtərəfli təhlil edilərək həm diplomatik, həm də hərbi-siyasi səviyyədə adekvat mövqe ortaya qoyuldu. Ordumuzun həmin günlərdə həyata keçirdiyi tədbirləri Ermənistanın müharibə ritorikası fonunda törətdiyi təxribatlara sərt cavab idi. Qarşı tərəfin mövqelərimizə hücum cəhdi bir daha uğursuzluqla nəticələndi. İyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında döyüşlər daha da şiddətlənərək Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində davam etdi. Hərbi əməliyyatlar daha kompleks xarakter aldı. Düşmənin yalnız ön mövqeləri deyil, həm də müdafiənin dərinliklərində yerləşən ehtiyat qüvvələri və komanda məntəqələri də hədəfə alındı. Azərbaycan Ordusu müxtəlif təyinatlı texnikaları və döyüş vasitələrini məhv etməklə yanaşı, düşmənin müdafiə strukturunu da çökdürdü. İki sutka ərzində aparılan əməliyyatlar nəticəsində qarşı tərəfə sarsıdıcı atəş zərbələri endirildi. Döyüş meydanında böyük itkilər verən Ermənistan silahlı qüvvələri geri çəkilməyə məcbur oldu. Bu, həm taktiki baxımdan Azərbaycanın üstünlüyünü təsdiqləyir, həm də Ermənistanın sərhəd boyunca eskalasiya yaratmaq cəhdlərinin iflasa uğradığını göstərirdi.

2020-ci il iyulun 14-ü Azərbaycan xalqının tarixi yaddaşında dərin iz buraxan dönüş nöqtəsi oldu. Həmin gün Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində həyata keçirdiyi genişmiqyaslı artilleriya hücumları zamanı Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və beş digər hərbi qulluqçumuz qəhrəmancasına şəhid oldu. Yüksəkrütbəli komandirlərin döyüşlərin ən qızğın məqamında ön xətdə şəhid olmaları, Azərbaycan Ordusunun komanda strukturlarında "komandir arxada deyil, öndə olmalıdır" prinsipinin bariz təcəssümü idi. Bu fakt beynəlxalq miqyasda da böyük rezonans doğurdu. Orduda zabit-əsgər münasibətində güvən və birliyin nümunəsinə çevrildi. Həmin gün Ermənistan silahlı qüvvələrinin Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini ağır artilleriya ilə atəşə tutması təxribatların planlı şəkildə həm hərbi, həm də mülki infrastrukturu hədəf aldığını göstərdi. Məqsəd yalnız döyüş mövqelərinin dəyişdirilməsi deyil, həm də Azərbaycan cəmiyyətində xaos, qorxu yaratmaq idi. Lakin nəticə əksinə oldu, xalqın həmrəyliyi daha da gücləndi.

Ali Baş Komandan, Prezident İlham Əliyev Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı kimi qiymətləndirdi və orduya cəza əməliyyatlarının həyata keçirilməsi üçün göstəriş verdi. Həmin gün artilleriya hücumları nəticəsində Tovuz rayonunun Ağdam kəndinin bir sakini həlak oldu. Bu, münaqişənin də hədəf alan təhlükəli mərhələyə keçdiyini göstərirdi. Azərbaycan Ordusu düşmənin pilotsuz uçuş aparatını və artilleriya qurğusunu döyüş heyəti ilə birlikdə məhv etməklə düşmənə sərt cavab verdi. Eyni zamanda düşmənin artilleriya divizionunun idarəetmə məntəqəsi də bölmələrimizin sərrast zərbələri ilə sıradan çıxarıldı. İyulun 15-də həyata keçirilən cəza tədbirləri düşmənin döyüş texnikasını və bir bölüyün dayaq məntəqəsini məhv etdi. Ermənistanın cavab atəşi üçün istifadə etdiyi müxtəlif növ silahlar - iriçaplı pulemyotlar, snayper tüfəngləri və minaatanlar cavab zərbələri ilə susduruldu. Düşmənin uzunmüddətli atəş nöqtələri və dayaq məntəqələri sistematik şəkildə sıradan çıxarıldı. İyulun 15-də keçirilən Nazirlər Kabinetinin iclasında Ali Baş Komandan İlham Əliyevin "Əgər kimsə, hansısa vətənpərvər insan orduda xidmət etmək istəyirsə, mən bunu ancaq alqışlayıram" çağırışı bir neçə saat ərzində minlərlə vətəndaşın əməli addımına çevrildi. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə gənclər könüllü şəkildə axın etdilər.

İyulun 16-da düşmən Tovuz rayonunun Ağdam, Dondar Quşçu və Vahidli kəndlərini iriçaplı silah və minaatanlarla atəşə tutmaqla mülki əhalini hədəfə almağa cəhd etdi. Bu, Ermənistanın münaqişəni regional sərhədlərdən çıxarıb humanitar böhrana çevirmək niyyətinin növbəti sübutu idi. Lakin Azərbaycan Ordusunun sərt və dəqiq cavabı nəticəsində düşmən susduruldu. İyulun 17-də cəbhədə nisbi sakitlik müşahidə olunsa da, gərginlik fonunda qarşılıqlı atəşlər və mövqe üstünlüyü uğrunda manevrlər davam edirdi. Bu, Azərbaycanın üstün taktiki idarəetməyə keçdiyi mərhələ idi. Beş gün davam edən Tovuz döyüşlərində Azərbaycan Ordusu 12 hərbi qulluqçusunu şəhid verdi. Bu döyüşlərdə düşmən tərəfinin 100-dən çox hərbçisi zərərsizləşdirildi, onlarla texnika və hərbi infrastruktur obyektləri sıradan çıxarıldı.

Tovuz döyüşlərindən cəmi iki ay yarım sonra, 2020-ci ilin 27 sentyabrında Ermənistanın növbəti genişmiqyaslı hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Bu əməliyyat cəmi 44 gün davam etdi, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi, Azərbaycan beynəlxalq hüququn real güc üzərində necə bərpa oluna biləcəyini bütün dünyaya nümayiş etdirdi. Qələbəmiz Tovuzda şəhid olan hərbçilərimizin, o cümlədən general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və onlarla əsgər və zabitimizin qanla yazdığı mübarizə tarixinin məntiqi davamı idi. Şəhi qanı yerdə qalmadı, qisasları elə döyüş meydanında, süngü və bayraqla alındı. Vətən müharibəsində əldə edilən möhtəşəm zəfər milli ruhun təntənəsi, Azərbaycan xalqının birliyi, iradəsi və inamının nəticəsi idi. Bu qələbəni bizə bəxş edən igid əsgər və zabitlər - Tovuzdan Şuşaya qədər savaşan minlərlə vətəndaş xalqın qürur mayaklarıdır. Onların qəhrəmanlığı artıq dastana çevrilib.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**